# Misir Ərəb Respublikasının Şarm Əl-Şeyx və Azərbaycan Respublikasının Qəbələ şəhərləri arasında dostluq və əməkdaşlıq Sazişi imzalanmışdır

Misir Ərəb Respublikasının cənubi Sinay vilayətinin qubernatoru, general Xalid Fodanın rəhbərlik etdiyi nümayəndə heyəti Qəbələ rayonuna səfər etmişdir.



Səfər çərçivəsində Qəbələ Mədəniyyət Mərkəzində Xalid Fodanın başçılıq etdiyi nümayəndə heyəti və Qəbələ rayon icra hakimiyyəti başçısı tərəfindən Azərbaycan Respublikasının Qəbələ və Misir Ərəb Respublikasının Şarm Əl-Şeyx şəhərləri arasında dostluq, əməkdaşlıq və qarşılıqlı anlaşmanı gücləndirmək niyyəti ilə əlaqədar saziş imzalanmışdır.

Tərəflər onları maraqlandıran məsələləri də müzakirə etmişlər.

**«Qəbələ».**
**Fotolar S. Umuyevindir.**



# Olimpiya atıcılıq növləri üzrə II Beynəlxalq Qran-pri turniri kesirilmuşdur

Qəbələ şəhərindəki Heydər Əliyev adına Konqres Mərkəzində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilən olimpiya atıcılıq növləri üzrə mayın 16-da başlanan II Beynəlxalq Qran-Pri yarışlarına mayın 24-də yekun vuruldu.

Tədbirin açılış mərasimində iştirak edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, "Qəbələ" İdman Klubunun prezidenti Tale Heydərov, Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidenti Hafiz Cəfərov çıxışlarında ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından, bu sahədə qazanılan uğurlardan, dahi şəxsiyyət Heydər Əliyevin xatirəsinə həsr edilən atıcılıq üzrə beynəlxalq yarışın əhəmiyyətindən danışmışlar.

Ümumi mükafat fondu 96,5 min ABŞ dolları olan turnirdə 17 ölkədən, o cümlədən ABŞ, Avstraliya, Böyük Britaniya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Finlandiya, Gürcüstan, Macarıstan, İran, İtaliya, Kipr, Küveyt, Qətər, Rusiya, Türkiyə və Ukraynadan 150-yə yaxın idmançı iştirak etmişdir.

* * *

Atıcılığın səngər stendi üzrə gənc oğlanlar arasında keçirilən yarışda Əlmirzə Quliyev Avstraliyanın iki tanınmış idmançısı Lack Wallageni və Samuel Bilsmanı geridə qoyaraq yarışların qalibi oldu. Mayın 18-də keçirilən qadınların yarışında isə Azərbaycan idmançısı Rəna Ələsgərova uğurlu çıxışı ilə Olimpiya çempionu Makkela-Nummela Satunu (Finlandiya) və Alhaval Saranı (Küveyt) geridə qoyaraq birinci yeri tutdu.

Dairəvi stend üzrə qadınlar arasında keçirilən yarışda Svetlana Demina (Rusiya) birinci, Alşamaa Eman (Küveyt) ikinci, Nurlana Cəfərova (Azərbaycan) üçüncü yeri tutmuşdur. Dairəvi stend üzrə gənclərin yarışında isə Niyaz Ağazadə İrakli Lomidzeni (Gürcüstan) və Əli Mustafayevi (Azərbaycan) geridə qoyaraq Qran-pri yarışlarının qalibi olmuşdur. Hər üç yeri tutan idmançılara diplom, medal və qiymətli hədiyyələr təqdim edilmişdir.

# Avropa Oyunlarının məşəli qədim tarixi, füsunkar təbiəti, sürətli sosial-iqtisadi inkişafı ilə seçilən Qəbələdə alovlandı

**(Əvvəli 2-ci səhifədə).**

Məşəlçilər bayramsayağı bəzədilmiş Heydər Əliyev adına prospektdən, Səməd Vurğun, İsmayılbəy adına küçələrdən keçərək şəhərin mərkəzi parkına daxil olurlar. Məşəlçilərin keçdiyi prospekt və küçələr nə qədər enli olsalar da buraya toplaşan sıx insanların arasında sanki dar görünürdülər.

Bayram təntənəsinə toplaşan insanlar məşəl yürüşü davam etdikcə yol boyu son illərdə Qəbələ şəhərində baş verən yeniliklər, tikinti-abadlıq işləri ilə tanış olurlar. Zirvələri hələ də təzəcə yağmış ağappaq qara bürünən, bir qədər aşağıda dağların qurşağına dolanaraq ağ kəməri xatırladan bəyaz buludlar, bu buludlardan da aşağıda yaşıl libasa boyanan sıx meşələr, xüsusən yaz aylarında daha çılğın və coşub-çağlayan bulaqlar, aşıb-daşan çaylar, saf bahar havası, bir sözlə təbiətin ruhu oxşayan mənzərəsi tədbir iştirakçılarında xoş ovqat yaradır, məşəl estafetinə xüsusi rəng qatır, yeni yaraşıq və büsat bəxş edirdi.

Bu gözəlliyi duyanlardan, bu sevincə onlarla, yüzlərlə qatılan insanlardan biri də rayon gənclərinin nümayəndəsi, gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov idi. Onun şən əhval-ruhiyyəsindən görünürdü ki, yürüşdə iştirak edən insanlar arasında ondan çox sevinən yoxdur. Bu sevinci onunla bölüşməyə qatıldıq. O deyir: «Axı mən niyə də hamıdan çox sevinməməliyəm. Bax, görürsünüz ki, tədbirdə nə qədər fəal gənclərimiz, adlı-sanlı idmançılarımız iştirak edir. Sanki rayonun şəhər, qəsəbə və kəndlərində daha gənc qalmayıb ki, bu tədbirə qatılmasın. Bizim gənclər Avropa Oyunlarına start verilən gündən məşəlin səyahətini maraqla izləyir və bu günü səbirsizliklə gözləyirdilər. Gənclərlə birlikdə tədbirə günlərlə hazırlıq aparmışıq. Nəticə isə göz qabağındadır. Bu inkişaf, bu qələbəlik Azərbaycanın bütün sahələr üzrə sürətli inkişafının nəticəsidir, ümummilli liderimiz Heydər Əliyev siyasətinin cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsidir. Mətbuatın yenicə verdiyi məlumata görə Azərbaycan bu ilin yanvar-aprel aylarında sürətli sosial-iqtisadi inkişafına görə yenə də Avropada birinci yerə çıxmışdır. Elə ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi də məhz bu kimi uğurlardan biridir. Biz gənclər belə uğurlarla fəxr edirik. Odur ki, indi bu uğurlar bizi daha irəliyə, yalnız irəliyə aparır».



Nəhayət, məşəl yürüşü şəhərin mərkəzi parkına, Heydər Əliyev parkına çatır. Parka toplaşan insanların ən sevincli anları yaşanır. Qəbələ Olimpiya İdman Kompleksinin əməkdaşı Ehsan Nəzirov meydana toplaşan insanların alqışları altında burada hazırlanmış səhnəyə qalxaraq «Atəşgah»dan gətirilən məşəllə I Avpopa Oyunlarının rəmzi çırağını yandırır. Sonra Qəbələ şəhər məktəblisi Bəhram Əhmədli səhnəyə dəvət olunur və yenidən gurultulu alqışlar altında çıraq ona təqdim olunur. Çıraq Avropa Oyunlarının sonuna qədər Heydər Əliyev Mərkəzində saxlanılacaqdır.

Bununla da məşəl yürüşünün rəsmi hissəsi başa çatır. Əvvəlcə ekranda Avropa Oyunlarına start vermək üçün aprelin 26-da Atəşgahda yandırılan məşəlin videoçarxı nümayiş etdirilir. Daha sonra meydan şeir, sənət ifaçılarının ixtiyarına verilir. İfaçılar ana vətən, torpaq, sədaqət, hünər və rəşadət haqqında mahnılar oxuyur, şeirlər səsləndirirlər. Milli musiqi sədaları, «Cəngi» qrupunun, «Zopu-zopu» folklor-etnoqrafik rəqs ansamblının çıxışları gurultulu alqışlarla qarşılanır. Bu şənlik axşam saat 10-a qədər davam edir. Festival atəşfəşanlıqla başa çatır. Qəbələ şəhəri alovlanan məşəllərin və atılan fişənglərin nuruna boyanır.

Qəbələdə I Avropa Oyunları ilə bağlı təşkil olunan bayram təntənəsi, bu yüksək səviyyəli festival uzun müddət yaddaşlardan silinməyən bir tarixə çevrilir.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar S. Umuyevindir.**